Ədalət.- 2020.- 29 dekabr. S. 6.



***Kamalə Abiyeva***

# *Sən elə azadsan*

## *Şəhidlərə məktub*

**Torpaq əsirdisə Vətən şəhiddi
Bu boyda ağrıyla yaşamaq olmur.
Ey Vətən yolunda şəhid igidim
Böyüklüyünü də daşımaq olmur.**

**Elə möhtəşəmsən, elə böyüksən
Sığmırsan nə qəlbə, nə gözə igid.
Utancdan öləcək sənə nə desəm
Sığmazsan nə dilə, nə sözə igid.**

**Bu torpaq uğruna fəda etdiyin
həyatına qurban, özünə qurban.
Bağrımı yandıran son nəfəsinin
"Vətənim sağ olsun" sözünə qurban.**

**Sənə də,mənə də anadır igid,
Vətən dediyimiz bu Azərbaycan.
Heyf əvəzinə ölə bilmədim,
Sən anana qurban,mən sənə qurban...**

**Sən elə azadsan, elə azadsan
Mən bu azadlığın quluyam daha.
Sən elə rahatsan, elə rahatsan
Mən isə dönmüşəm gözyaşlı aha.**

**Sən elə əlçatmaz bir zirvədəsən,
Bilmirəm nə vaxtsa görüşərikmi?
Sən o kutsal Vətən zirvəsindəsən.
bilmirəm ruhumuz görüşəcəkmi?**

**Vətəndən halallıq alan igidim
Sən elə xoşbəxtsən, elə xoşbəxtsən
Mən səndən halallıq ala bilmədim.
Ömürlük önündə borclu qaldım mən.**

**Hər qarış torpaqda gəzən nəfəsin
"Haqqını halal et" deməyin deyir.
Həkəri çayına qarışan səsin
"haqqımı Vətənə vermişəm" deyir.**

**Haqqımı qoruyun, tapdalanmasın.
Qoruyun siz Vətən əmanətimi.
Elə qoruyunki, canı yanmasın.
Qoruyun Şəhidlik səadətimi.**